# Konsept və qrammatika

**Nərmin Əhmədova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Dillər Universiteti*
**E-mail:** narmin324@mail.ru

**Rəyçilər:** filol.ü.e.d., prof. L.M. Cəfərova,
filol.ü.e.d., dos. C.M. Babayev

**Açar sözlər:** konsept, qrammatika, koqnitiv dilçilik, təfəkkür, şüur, fəaliyyət
**Ключевые слова:** концепция, грамматика, когнитивное языкознание, мышление, сознание, деятельность
**Key words:** concept, grammar, cognitive linguistics, mind, consciousness, act

Mətn dilçiliyi bir tədqiqat obyekti kimi XX əsrin 70-ci illərindən öyrənilməyə başlanmışdır. Mətn bütün linqvistik tədqiqatlarda mühüm rol oynayır (2, s. 182).

Mətn dilçiliyi linqvistikaya bir tədqiqat obyekti kimi daxil edildikdən sonra yeni obyektin müəyyənləşməsi zəruriyyəti yaranır. Lakin bu asan məsələ deyildi. Artıq mətni təşkil edən cümlələrin, cümlələr daxilində sözlərin, konseptlərin öyrənilməsinə diqqət yetirilməyə başlandı.

Ünsiyyət prosesində bir insan digərinə bu və ya digər səbəbdən yaranmış fikirlərini, düşüncələrini çatdırır. Çatdırılan fikir və düşüncələr adətən fərqli konseptlər şəklində beyində formalaşır. İdeal mahiyyətinə görə, konseptlər özbaşına beyindən xaric ola bilməzlər. Onların xaric ola bilməsi, yəni ötürülməsi üçün mütləq ünsiyyət qurulmalı və lazım olan kontekstə uyğun konsept yaranmalı və ötürülməlidir. H.Keller yazır: "Düşünürdüm. Qəflətən unutduğum bir şey dumanlı şəkildə beynimdə dolaşdı. Sanki itirilmiş düşüncənin bir dalğası beynimdə əks olundu. Həmin an dilin sirri mənə agah oldu. ... İnsanların ətrafında olan hər şeyin adı, yəni konsepti var. Hər bir düşüncə yeni bir konsepti yaradır" (12, s. 410).

Çox insan düşünür ki, onlar sadəcə olaraq danışırlar. Onların beyinlərində olan konseptlərdən, konseptsferlərdən xəbərləri yoxdur. İnsanların çoxu da düşünür ki, sözlərin konseptlərlə ifadə olunması təbii haldır. Uşaqların dilöyrənmə prosesində konseptlərin yaranması mərhələli formalaşır. Ana uşağına ətrafdakı obyektləri göstərir, onların adlarını deyir və uşağın təkrar etməsilə həmin konsept onun beynində yaranır. Məsələn, belə situasiyanı gözlərimiz önündə canlandıraq:

*Uşaq xalçanın üstündə oturan pişiyi görür, o, həmçinin pişiklə oynayan adamı, pişiyin üstündə oturduğu xalçanı və ətrafda olan digər şeyləri də görür. Uşaq ona görə pişik barədə düşünür ki, həmin an onun beyni pişiyə köklənmiş olur və onun beynində ancaq pişiyin konsepti yaranır.*

Bu cür situasiyalar R.de Boqrandın və V.Dreslerin də müəyyən etdiyi kimi konseptlik kriteriyaları hesab edilir.

N.Xomski yazır ki, elm adamları qrammatika terminini sistemli şəkildə olan qeyri-müəyyənlik adlandırırlar (11, s. 26). Bir tərəfdən bu termin hər hansı bir dilçi tərəfindən yaradılan eksplisit nəzəriyyə hesab edilir. N.Xomski onu danışanın səriştəsi (kompetensiyası) kimi təsvir edir. Digər tərəfdən isə o, sırf səriştənin özünə aid hesab edilir.

Səslər, səs nümunələri, sözlər və söz birləşmələri dilin qrammatikasını yaradır. Bir sözlə,

qrammatika bizim bildiyimiz, haqqında düşündüyümüz və onu ifadə etdiyimiz qaydalar sistemi hesab edilir. O, bizim linqvistik kompetensiyamızı təqdim edir. Dilin mahiyyətini başa düşmək üçün biz ilk növbədə həm şüurlu, həm şüursuz vəziyyətdə hazırlanan cümlələrin qurulma qaydalarını başa düşməliyik və bu da insanların gündəlik işlətdikləri qrammatikanın bir hissəsi hesab edilir.

Konseptlərin mahiyyətini koqnitiv dilçilik öyrənir. Koqnitiv dilçilik hazırda inkişaf mərhələsindədir. İlk əvvəl lüğəvi mənada *koqnitiv* termininin mənasını açaq. *Koqnitiv* termini koqnisiya ilə əlaqəsi olan deməkdir. O, mental proseslərlə bağlı olur. *Koqnisiya* hər hansı bir hadisəni *bilmə, qavrama* prosesi hesab edilir.

Koqnitiv dilçiliyin anlayışı kimi konseptləri fərqləndirirlər. Ə. Abdullayev konseptlərin bütövlükdə təfəkkür və nitq fəaliyyəti aktları zamanı müşahidə olunduğunu yazır (2, s. 189). Bu alimin iddiasına görə, konseptlər aktivləşən və istifadə olunan "bilik" hissələridir.

Konseptləri təhlil olunması mümkün olmayan, informasiyanın koqnitiv işlənməsi prosesində daha kiçik hissələrə bölünə bilməyən məna vahidləri hesab etmək olar. Təbii ki, konseptlər strukturlaşmış biliyin vahidləri və ya kvantları olduğundan onları sadə hesab etmək olmaz.

Koqnitiv dilçiliyin digər mühüm anlayışlarından biri də konseptsferdir. Konseptsfer vahidləri konseptlərdən ibarət olan bilgilər sahəsi hesab olunur. Bu termini ilk dəfə D.S. Lixaçev istifadə etmişdir (8, s. 36). Bu müəllifə görə, konseptsfer millətin konseptlərinin məcmusudur və dildə danışanların konseptlərinin bütün potensiyaları ilə əmələ gəlir.

Millətin mədəniyyəti, folkloru, ədəbiyyatı, incəsənəti, tarixi təcrübəsi və s. nə qədər zəngin olarsa, onun konseptsferi də o qədər zəngin olur. Konseptlər də, konseptsfer də mental mahiyyətlidir və onları müşahidə etmək mümkün deyildir. Mental proseslər dedikdə yenə də beynin rolu ortaya çıxır. İnsan davranışında və ümumilikdə insanın dil qabiliyyətinin formalaşmasında beynin rolu danılmazdır. Nyu York universitetindən psixolinqvist Q. Markusa görə, beyin hisslərdən məlumatı alır, həmin məlumatı təhlil edir və əzələlər vasitəsilə onu komanda şəklində dilə gətirir (13, s. 96).

N.Xomski dilöyrənmədə genetik koqnisiya prinsiplərinin aktiv olduğunu göstərir və qeyd edir ki, bu heç də hər şeyi öyrənmək deyildir, öyrənmək yalnız prosesin aktivləşməsidir ki, bu da bütün dillər üçün eynidir və beyindəki digər koqnitiv proseslərlə əlaqədardır (11, s. 30). Dili mənimsəyə bilən istənilən sağlam dünyaya gəlmiş fərdin beynində fikir yaranır və fərd inkişaf etdikcə konseptual mühit də dəyişir, inkişaf edir. Buradan da məlum olur ki, beyin, davranış və fikir sıx şəkildə bir-birlərilə əlaqəlidir. Fərdin konseptual biliyi və həmin biliyin ötürülməsi yaddaşda saxlanılmış məlumatın təqdimatı kimi göstərilir.

Bir çox antropoloqlar insanı "man the tool-marker" (alət hazırlayan insan) adlandırırlar, lakin F.Palmerin də iddia etdiyi kimi meymunlar da sadə alətlər hazırlaya bilirlər (14, s. 100). Belə olan halda insanı digər canlılardan fərqləndirən nədir? Artıq təsdiq olunmuşdur ki, bu, insanın danışa bilmək qabiliyyəti ilə bağlıdır. Necə deyərlər: İnsan: "danışan heyvan", yaxud *homo loquens* "man with wisdom" ("ağılı, müdrikliyi olan insan" yaxud "müdrik insan") adlanır. Bu zaman diqqəti cəlb edən insanın işlətdiyi cümlələrin qrammatik quruluşudur və onların koqnitiv əsaslı olmasıdır.

F.Palmer yazır: "Dilin insana məxsus olan xüsusiyyətini belə əhəmiyyətli edən şey onun qrammatikası və konseptidir" (14, s. 101). F.Y.Veysəlli yazır: "Bir çox heyvanlar fərqli səslər çıxarda bilirlər. Məsələn, it hürür, at kişnəyir və s. Səs və məna arasındakı əsas əlaqə insanın səs vasitəsilə sözlərə verdiyi qrammatik quruluşdur" (4, s. 10). Bu səbəbdən də insan *homo grammaticus* ("grammatical man", human use of grammar, language) "qrammatik adam"

adlanır. Hazırda koqnitiv qrammatika termini çox eşidilməyə başlayıb.

Əsası R.Lanqaker tərəfindən qoyulan koqnitiv qrammatika dilin inkişafına koqnitiv yanaşmanı əks etdirir. Koqnitiv qrammatikada qrammatika, semantika və leksika ayrılıqda öyrənilən proses kimi deyil, hamısı bir arada təcəssüm edən kontinuum kimi qəbul edilir. Dilə olan bu cür yanaşma koqnitiv dilçiliyin bir mövqeyi kimi qəbul edilir (15, s. 184).

Ənənəvi qrammatika bir elm sahəsi olaraq çoxşaxəli və rəngarəng bilgiləri ehtiva edir. Lakin onun dərinliklərində hələ də açılmamış məsələlər vardır. Qrammatikanı bir elm sahəsi kimi daha dəqiq və ətraflı öyrənmək, araşdırmaq və təhlil etmək üçün, sözsüz, onun bünövrəsi qoyulduğu andan hazırkı vəziyyətinə qədər keçdiyi zaman yolunu tədqiq etmək lazımdır.

*Qrammatika* termini qədim yunan sözü olan *grammatikē* sözündən götürülüb. *Gram* yazı, yazılmış, *tikē* isə incəsənət deməkdir, bütövlükdə *grammatikē* yazının incəsənəti mənasına gəlib çıxır. Qədim Yunanıstanda və qədim Romada *grammatikē* və qrammatika terminləri bütövlükdə dilçilik elmini əhatə edən bir sahə kimi başa düşülsə də, erkən orta əsrlərdə qrammatika Latın dilinin öyrənilməsi kimi qeydə alınmağa başladı. İngiltərədə bu fikir 16-cı əsrin sonlarına qədər davam etdi və Latın dilinin qrammatikası məktəblərdə tədris olunan yeganə qrammatika idi.

İnsan bir çox nəzəriyyələrdə əsas tədqiqat obyekti hesab edilir. Antroposentrizm nəzəriyyəsi də insanı kainatın aparıcı qüvvəsi, hər bir şeyin başlanğıcı və üzərində heç bir digər varlığın hökmü olmayan obyekt kimi öyrənir. Bu dini-fəlsəfi düşüncə tərzi İntibah dövründə formalaşmış və nəinki Avropa, eyni zamanda Asiya təfəkkürünün formalaşmasında əsas vasitə hesab edilir.

Konsept vasitəsilə əks olunan anlayışların aşağıdakı üçlü düzümünü vermək olar: şüur fenomen kimi, gerçəkliyin inikasının ali forması kimi, təfəkkür gerçəkliyin şüurlu inikasının prosesi kimi, intellekt isə əqli qabiliyyət kimi (3, s. 96). Məlumdur ki, şüur həm heyvanda, həm də insanda olur, təfəkkür və intellekt isə ancaq insana məxsusdur. Bu qeyd etdiklərimizdə bir qədər müqayisəli problemlər olduğunu da vurğulamaq istərdik.

Bir sıra dilçilər bu məsələdə də mübahisə edirlər. Dilçilərdən D.Bekerton bəzi heyvanların məsələn, leopard, delfin, yaxud arı, göyərçin və s. üzərində tədqiqatlar aparır və onların instinkt olaraq bəzi hərəkətləri icra etmələrindən onlarda şüurun olub, olmaması barədə suallar qoyur (9, s. 135).

Heyvan Ünsiyyət Sisteminin araşdırmaları nəticəsində alimlər iki əsas xüsusiyyət kəşf edirlər: onlar mənşəcə ünsiyyət hesab edilməyən davranışlarla böyüyürlər və birbaşa onlara uyğun olan məqamlara cavab verirlər. Burada biz bioloqların dilin yaranması kimi möhtəşəm problemi ilə üzləşməli oluruq. İnsanlar düşünür ki, dilin vahidliyi problemin əsasını təşkil edir. Lakin alimlər bununla razılaşmırlar. Canlılarda çox şey vahiddir: bipedalizm və bədən tükünün olmaması.

Bir çox digər cinslərdə də unikallıq çoxdur: fillərin xortumu, zürafələrin boynu, tovuz quşunun quyruğu və s. Amma digər heç bir canlıda dil mövcud deyil. Qeyd etdiyimiz xüsusiyyətlərə bir də nəzər salaq. Məsələn, bipedalizmin olmaması xüsusi bir faktor deyil. Quşlar bunu bacarır. Kenqurular, demək olar ki, bacara bilirlər. Digər xüsusiyyət, yəni tüksüzlük də unikallıq hesab oluna bilməz.

Bəzi məməlilərdə buna rast gəlmək olar. Amma gəlin unikal olan bir şeyi, yəni fillərin xortumunu nəzərdən keçirək. Psixolinqvist S.Pinker özünün "Heyvan instinkti" kitabında bu məsələyə xüsusi toxunur. O, bunu dillə müqayisə edərək deyir: "Heyvanları dilli təsəvvür eləməyi düşünə biləriksə, gəlin insanları da xortumlu təsəvvür edək. Sizcə, necə olar?" Və o, təkidlə yazır: "..fillərin xortum unikallığından müasir insan üçün dil instinkt unikallığı

paradoksdan başqa bir şey deyildir" (9, s. 139).

Lakin bəzi alimlər, məsələn D. Bekerton hesab edir ki, o haqlı deyil. O, izah edir ki, fillərin xortumları onların burnunun hiperinkişafının nəticəsində belə olmuşdur, bunu anatomiklər daha yaxşı izah edə bilərlər. Lakin S. Pinker dilin yaranmasının fiziki göstəricilərini izah edə bilmir. Odur ki, qeyd edə bilərik ki, unikallıq göstərici deyil (9, s. 21). Dilin təkamülünü araşdıran dilçi, bioloq, anatom və s. bu məsələni aça bilmirlər.

Qeyd etmək lazımdır ki, HÜS-ün vasitələri, yəni qışqırmalar, səs çıxarmalar, hərəkətlər və s.-i situasiyadan çıxarsaq onlar tamamilə mənasız və lazımsız olacaqlar. Dil vahidləri isə, məsələn, sözlər, əl hərəkətləri və s. mənasız deyil. Onlar hər bir situasiyada mənalıdır. Məsələn, əgər mən desəm ki, bax, pələng sənin üstünə tullanmaq üzrədir. Əlbəttə, sən biləcəksən ki, mən zarafat edirəm. Amma istənilən halda cümlənin mənası sənə anladır ki, əgər pələng sənin üstünə tullansa, nə baş verə bilər.

Dil vasitələri ilə (söz, sabit və sərbəst söz birləşmələri, cümlə, mətn vasitəsilə) xarici aləmi əks etdirən və bununla formalaşan obrazların məcmusu dil şüuru kimi müəyyənləşir. Konseptlərin şüurda yaranması prosesi dil vasitəsilə icra edilir. Qeyd etmək lazımdır ki, şüurun ətraf aləmlə bağlılığı da dil vasitəsilə həyata keçirilir. Danışıqda fəal iştirak edən dil informasiya mübadiləsini gerçəkləşdirir və şüurun məzmunu müşahidə funksiyasını yerinə yetirmək üçün açılır. Amma alimlərin iddialarına görə şüurun dillə bağlılığı xüsusi dil şüuru kimi şərh oluna bilər.

Koqnitiv şüur xarici aləmlə bağlı olur və o, heç bir digər dil statusu qazanmır. Z.D.Popova və İ.A.Sternin yazdığına əsaslansaq deyə bilərik ki, dil şüuru şüurun dil (danışıq) fəaliyyətini təmin edən hissəsidir: danışığın əmələ gəlməsi və dərkidir, eyni zamanda dilin şüurda saxlanılması hesab edilə bilər (6; 7).

İnsan beynində formalaşmış əşya adları, yaxud əşyalar birbaşa real dünya ilə əlaqəlidir. İnsan ünsiyyətə girmək üçün beynində olan məlumatı səslərlə, yaxud sözlərlə ətrafa ötürür. N.Xomski iddia edir ki, insan ünsiyyətə girməmişdən əvvəl onun beynində rekursiya (beyinin əlaqələnməsi, birləşməsi) prosesi gedir və rekursiya yarananda artıq fikir, yaxud ad beyində mövcud olmuş olur (11, s. 45).

İnsan təxəyyülündə mövcud olan konseptlər fərdi xarakter daşıyır. Hər bir insanın beyni fərqli quruluşa malikdir. İnsanların dərketmə fəaliyyəti hər bir insanın marağı xaricində baş verən həyat fəaliyyətidir. Məhz bu dərketmə fəaliyyəti cəmiyyətdə öz yerini müəyyənləşdirmək qabiliyyətini formalaşdırır, gündəlik həyatda ətraf aləmlə münasibət qurmağa imkan verir. Ayrı-ayrı konseptlərlə yanaşı, hesab edilir ki, ətraf aləmin konseptual mənzərəsi özündə mürəkkəb bilik ölçülərini birləşdirir.

**Məqalənin aktuallığı.** Aktuallıq hazırda əhəmiyyətli sayılan koqnitiv qrammatika və konsept məfhumlarının fərqləndirilməsi üsullarının araşdırılmasından ibarətdir.

**Məqalənin elmi yeniliyi.** Koqnitiv qrammatika və onun inkişaf xüsusiyyətlərinin müəyyənləşməsi və öyrənilməsi elmi yenilik hesab olunmalıdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali məktəb müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abdullayev K. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: MTM Innovation, 2016, 360 s.

2. Abdullayev Ə. Ə. Aktual üzvlənmə, mətn və diskurs. Bakı: Zərdabi LTD, 2011, 272 s.

3. Veysəlli F.Y. Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı: Mütərcim, 2015.
4. Veysəlli F.Y. Dil. Təhsil NPM, Bakı, 2007.
5. Лихачев Д.С. Концептсфера русского языка. Изд. РАН-СЛЯ-1993, 1, с. 5.
6. Попова З.Д., Стернин И.А. Когнитивная лингвистика. Восток-Запад, 2007.
7. Fodor J.A. The Language of the Thought. Cambridge, Mass.: MIT Press, 1975.
8. Лихачев Д.С. Концептсфера русского языка. Изд. РАН-СЛЯ-1993, 1, с.5.
9. Bickerton Derek. Adam's tongue. New York, 2009.Chomsky N. Language and mind. Enlarged edition. New York: Harcourt Brace Jovanovich, 1972.
10. Beaugrande R de. Introduction to text linguistics/R.de Beugrande, W.Dressler. London, NY: Longman, 1981.
11. Chomsky N. A review of B.F.Skinner's Verbal Behaviour. "Language", 35, pp. 26-58, 1959.
12. Fromkin V., Rodman R. An Introduction to Language. USA: New York press, 1993, 544 p.
13. Marcus G. The birth of the mind. New York: Basic Books, 2004.
14. Palmer F. Semantics. Cambridge: Cambridge University Press, 1981, 232 p.
15. Ronald W. Langacker. Cognitive Grammar. Oxford: Oxford University Press, 2008, 584 p.

**Н. Ахмедова**

## Концепция и грамматика

## Резюме

Статья посвящена понятиям концепции и грамматики. Она показывает, что концепция (понятие) принадлежит человеческому сознанию. Концепции в умах людей имеют некоторые умственные характерные черты. Их не следует рассматривать как примитивные. Их следует рассматривать как единицы знания в мозгу человека.

Статья также дает некоторую информацию о грамматике, ее значении, ее форме образования. Она освещает факты, что грамматика может охватывать не только сознательные предложения, используемые человеком, но и бессознательные, и все реализуются через разные концепции.

**N. Akhmedova**

## Concept and grammar

## Summary

The article deals with the notions of concept and grammar. It states that concepts belong to the human's mind. The concepts that are in the people's mind have some mental characteristic features. They should not be considered to be primitive. They shoud be treated as units of knowledge in the human's brain.

The article also gives some information about grammar, its meaning, its way of formation. It highlights the facts that grammar may cover not only conscious sentences as well as unconscious sentences used by a man, and both are realized through various concepts.

**Redaksiyaya daxil olub:** 31.07.2019